Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ

XOCAVƏND

 02 (66) Təsisçi: Xocavənd Rayon İcra Hakimiyyəti Fevral 2016-ı

İlham Əliyev Gəncədə "İmamzadə" dini kompleksində yaradılan şəraitlə tanış olub

Prezident İlham Əliyev Gəncədə "İmamzadə" dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub

Azərbaycanın müxtəlif bölgələrində Məhəmməd peyğəmbərin nəslindən olan insanların məzarları var. Bu insanlar imamların övladları olduğu üçün həmin yerlər "İmamzadə" adlandırılıb. Hazırda Azərbaycan ərazisində Naxçıvan, Şamaxı, Bərdə və Masallıda İmamzadə adlı ziyarətgahlar mövcuddur. Bu sahədə araşdırma aparmış bəzi tədqiqatçılara görə, Səudiyyə Ərəbistanı və İraqdan sonra Peyğəmbər nəslinin nümayəndələrinin ən çox məzarları Azərbaycandadır. Belə ziyarətgahlardan biri də Gəncədəki VIII əsrə aid tarixi memarlıq abidəsi - xalq arasında "Göy günbəz", "Göy məscid" yaxud "Göy İmam" kimi tanınan "İmamzadə" dini-mədəniyyət kompleksi şəhərin və bütövlükdə ölkəmizin ən dəyərli memarlıq abidələrindən biri hesab edilir. Bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub.

Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu - XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal edilir. Türbə sonralar ziyarətgaha çevrilib və onun ətrafında müxtəlif binalar inşa edilib. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan "İmamzadə" piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib. "İmamzadə" əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olub.

Müxtəlif vaxtlarda dağıntılara məruz qalan "İmamzadə" ziyarətgahı 1946-cı ildən "İmamzadə" piri kimi fəaliyyət göstərib. 1970-ci illərdə "İmamzadə"nin idarə olunması Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin tabeliyinə verilib. Müxtəlif vaxtlarda, hətta sovet dövründə, xüsusilə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə "İmamzadə"də tarixi abidə kimi təmir-bərpa işləri aparılıb. Eyni zamanda, bu, sovet dövründə rəsmi dövlət qeydiyyatından keçmiş yeganə ziyarətgah olub. Bu dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir. Kompleks Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin də təmiri və bərpasına xüsusi diqqət göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduğu bu məbəd məhz dövlətimizin başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb.

Azərbaycan Prezidenti İlham Əliyev əvvəlcə respublika ictimaiyyətinin nümayəndələri və din xadimləri ilə görüşdü.

Mərasim müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başladı.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

Prezident İlham Əliyevin nitqi

- Hörmətli Şeyx həzrətləri, hörmətli din xadimləri, mərasim iştirakçıları.

"İmamzadə" dini mədəniyyət abidəsinin yenidənqurma və əsaslı bərpadan sonra açılışı münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bugünkü mərasimdə ölkəmizin hər bir bölgəsindən din xadimləri, nümayəndələr iştirak edirlər. Onları mən dəvət etmişəm. Çünki "İmamzadə" abidəsi bizim ümumxalq sərvətimizdir. "İmamzadə" bütün müsəlman aləminin qiymətli, dəyərli abidəsidir. Azərbaycan xalqı əsrlər boyu ictimai-siyasi quruluşdan asılı olmayaraq bu abidəni qorumuşdur, qoruyur və bundan sonra da qoruyacaqdır. "İmamzadə" bizim milli sərvətimizdir. Bir neçə il bundan əvvəl dini mədəniyyət abidəsinin yenidən qurulması və əsaslı təmiri üçün mənim tərəfimdən müvafiq Sərəncam imzalanmışdır, işlər başlanmışdır və bu işlər bu gün göz qabağındadır. Yeni məscid, mərasim zalı, inzibati binalar tikilmişdir, ərazi genişləndirilmişdir. Bu, Azərbaycan dövlətinin öz milli, dini dəyərlərinə göstərdiyi münasibətdir. Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, yenidən tikilir. Müstəqillik dövründə 2 minə yaxın məscid, digər dinlərin məbədləri tikilmişdir. Pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri həyata keçirilmişdir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. 2014-cü ildə ölkəmizin ən böyük məscidi - Heydər Məscidi tikilmişdir ki, bu da müsəlman aləminin mühüm tarixi, memarlıq və dini abidəsidir.

Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir, həll olunur. Cəmiyyətimizin, ölkəmizin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var. Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq etmişdir. Biz öz milli mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik. Əfsuslar olsun ki, müsəlman aləmində son vaxtlar vəziyyət o qədər də ürəkaçan deyil. Ənənəvi ziddiyyətlərə yeni ziddiyyətlər, yeni qarşıdurmalar əlavə olunur. Bu, bizi çox narahat edir.

Azərbaycan müstəqillik dövründə həmişə çalışıb ki, müsəlman aləmində birlik, həmrəylik daha da möhkəm olsun. Bu məqsədlə ölkəmizdə müxtəlif tədbirlər keçirilmişdir. İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun xətti ilə onlarla tədbir keçirilmişdir. Deyə bilərəm ki, bu gün müsəlman aləmində, müsəlman aləminin bütün seqmentlərində Azərbaycan və onun siyasəti çox böyük rəğbətlə qarşılanır. Biz bundan sonra da çalışacağıq ki, öz siyasətimizlə, o cümlədən diplomatik səylərlə müsəlman ölkələri arasındakı ixtilafları aradan götürək, gərginliyi azaldaq və bu, bizim borcumuzdur. Biz bunu belə qəbul edirik. Azərbaycanda bütün müsəlmanlar bir ailə kimi yaşayırlar. Tarixdə Azərbaycanda heç vaxt məzhəbçilik zəminində heç bir məsələ olmamışdır. Kiçik anlaşılmazlıq belə olmamışdır, olmamalıdır və olmayacaqdır. Bunun bariz nümunəsi bu yaxınlarda Heydər Məscidində bütün müsəlmanların vəhdət namazı qılmasıdır.

Biz bu istiqamətdə səylərimizi göstərəcəyik. Bir daha demək istəyirəm ki, Azərbaycan müsəlman aləmində çox böyük nüfuza malik olan ölkədir. Biz bunu təkcə iqtisadi və sosial inkişafımıza görə əldə etməmişik. O cümlədən dinlərarası münasibətlərdə oynadığımız rol bütün müsəlman aləmi tərəfindən yüksək qiymətləndirilir. Mənim müsəlman ölkələrinə səfərlərim, müsəlman ölkələrinin rəhbərlərinin Azərbaycana səfərləri dediyimi bir daha təsdiq edir.

Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, bizim böyük sərvətimizdir. Qeyd etdiyim kimi, Azərbaycanda pravoslav, katolik, alban kilsələri, sinaqoqlar tikilir, təmir edilir. Azərbaycanda dinlərarası münasibətlər çox sağlam zəmində həllini tapır. Biz dünyada bu istiqamətdə də öz rolumuzu oynayırıq. Azərbaycanda dünya dinləri liderlərinin zirvə görüşü keçirilmişdir. Ənənəvi humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları keçirilir. Bu il isə Azərbaycanda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçiriləcəkdir ki, bu, dünya miqyasında dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün ən mötəbər forumdur. Bu il bu şərəfli missiyanı Azərbaycan öz üzərinə götürür.

Bütün bu işlərin bir məqsədi var ki, ilk növbədə, ölkəmizin uğurlu inkişafı təmin edilsin, Azərbaycanda yaşayan bütün insanlar özlərini rahat hiss etsinlər, bölgədə təhlükəsizlik tədbirləri gücləndirilsin, dünya miqyasında Azərbaycanın rolu və bizə olan hörmət, inam, rəğbət daha da artsın. Biz bunu görürük və eyni zamanda, mən tam əminəm ki, əgər dünyada bundan sonra da dini zəmində qarşıdurmalar davam edərsə, bu, böyük fəlakətə gətirib çıxaracaqdır. Biz artıq hər il yeni münaqişə ocaqlarını, yeni problemli yerləri görürük. Bu gün daha çox miqrantlar böhranından danışırlar. Mən dövlət başçısı kimi bu məsələ ilə bağlı ölkəmizin mövqeyini dəfələrlə ifadə etmişəm və hesab edirəm ki, belə də olmalıdır. Biz bu məsələyə biganə qala bilmərik. Bu gün xarici müdaxilədən əziyyət çəkən insanlar öz canlarını, ailələrinin canlarını qurtarmaq üçün məcburi köçkün vəziyyətinə düşmüşlər. Onlar sadəcə olaraq ölməmək üçün bu əzablara qatlaşıb, böyük təhlükələrlə üzləşib Avropaya üz tuturlar. Yolda da onların çoxu ya dənizdə batır, ya başqa yerdə həlak olur. Biz görürük ki, bunlara qarşı münasibət heç də Avropanın bəyan etdiyi prinsiplərə uyğun gəlmir. Bu adamların heç bir günahı yoxdur. Əgər onların ölkələrinə xaricdən müdaxilə olunmasaydı, onlar öz ölkələrində yaşayardılar. Onlar - yaxınlarını itirmiş, qaçqın-köçkün vəziyyətinə düşmüş milyonlarla insan indi sadəcə olaraq öz canını xilas etmək istəyir. Onlara qarşı bəzi hallarda çox nalayiq hərəkətlər edilir. Onların şəxsiyyəti alçaldılır. Onlar haqqında artıq dünya mediasında çox mənfi rəy formalaşır.

Mən bu barədə dəfələrlə fikirlərimi bildirmişəm. O cümlədən bu yaxınlarda Suriya böhranı ilə bağlı Londonda keçirilmiş konfransda çıxış edərkən demişəm ki, Azərbaycan 1990-cı illərin əvvəllərində humanitar fəlakətlə üzləşmişdi. Bir milyon insan erməni işğalı nəticəsində öz yerindən didərgin düşmüşdür. O vaxt bizim nə imkanımız, nə pulumuz var idi, iqtisadiyyat tamamilə dağılmış vəziyyətdə idi. Biz demək olar ki, təkbaşına o böhranın öhdəsindən gəlirdik. Düzdür, o vaxt - 2010-cu ilə qədər beynəlxalq donor təşkilatları bizə yardımlar edirdilər. Amma təbii ki, o yardımlar 1 milyon insanın tələbatını ödəyə bilməzdi. Yəni, biz bunu təkbaşına etmişik, bu sınaqdan çıxmışıq. Bu gün də köçkünlərin məşğulluğu, yaşayış şəraitinin yaxşılaşdırılması üçün çox böyük işlər görülür. Doxsana yaxın qəsəbə salınıb, 250 minə yaxın köçkün yeni gözəl mənzillərə, evlərə köçüb. Ona görə, bəzi hallarda Yaxın Şərqdən köç edən miqrantlara olan belə münasibət başadüşülən deyil.

(Davamı 2-ci səhifədə)

İlham Əliyev Gəncədə "İmamzadə" dini kompleksində yaradılan şəraitlə tanış olub

(Əvvəli 1-ci səhifədə)

Bunun digər tərəfi də var. Bu barədə də mən demişəm, bir daha demək istəyirəm. Belə vəziyyət və xüsusilə Qərb mediasında miqrantlarla bağlı gedən birtərəfli antitəbliğat ona gətirib çıxarır ki, Avropada radikal partiyaların gücü, onlara səs verən əhalinin sayı artır. Onlar getdikcə daha çox siyasi dəstək alırlar. Əgər bu, belə davam edərsə, bir neçə ildən sonra onlar öz ölkələrində hakimiyyətə gələ bilərlər. Belə olan halda necə olacaq? Belə olan halda dinlərarası münasibətlər necə tənzimlənəcək? Bu gün Avropanın, demək olar, bütün ölkələrinin rəsmi mövqeyi təbii ki, müsbətdir. Avropa hökumətləri, onların bəziləri çalışır ki, miqrantlara layiqli münasibət göstərilsin. Biz bunu da görürük və təqdirlə qarşılayırıq. Ancaq bir daha demək istəyirəm, əgər dini zəmində bu qarşıdurma və təbliğat davam edərsə, gələcəkdə biz çox böyük problemlərlə üzləşəcəyik.

Azərbaycan, əlbəttə ki, dünya miqyasında o qədər də böyük ölkə deyil. Ancaq bizim sözümüzün böyük mənası və çəkisi var. Ona görə, şəxsən mən bütün bu məsələlərlə bağlı Azərbaycanın mövqeyini dünya birliyinə çatdıranda, eyni zamanda, bunun həll yollarını da göstərirəm. Həll yolları da Azərbaycan nümunəsidir. Nə üçün bu gün bəzi ölkələrdə deyirlər ki, multikulturalizm iflasa uğrayıb, multikulturalizmin gələcəyi yoxdur? Bu, səhv bir fikirdir. Baxın, Azərbaycanda multikulturalizm yaşayır. Baxın, o qədər də böyük müstəqillik tarixi olmayan, böyük çətinliklərlə üzləşən və işğala məruz qalan, heç vaxt bu işğalçının dini mənsubiyyətinə işarə vurmayan ölkə görün, bu məsələləri necə tənzimləyir. Nəyə görə? Çünki dövlət siyasəti aparılır. Bir daha demək istəyirəm, dövlət siyasəti əsas rol oynayır. Digər tərəfdən, bizim din xadimlərimiz bu istiqamətdə çox böyük rol oynayırlar. Xüsusilə şeyx həzrətlərinin fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. O, həm ölkə daxilində, həm MDB məkanında, dünyada Azərbaycanı tolerant, bütün dinlərin birgə yaşadığı ölkə kimi təqdim edir. Bizim digər din xadimlərimiz, - onlar burada əyləşiblər, - bu gün çıxış edəcəklər. Mən onların fəaliyyətini yüksək qiymətləndirirəm. Onların da çoxsaylı xarici səfərləri olur. Bu səfərlərdə də onlar sadəcə olaraq Azərbaycan reallıqları haqqında danışırlar. Yəni, bu, əsas amildir. Eyni zamanda, Azərbaycanın bu modelinin təməlində əlbəttə ki, ictimai fikir də dayanır. Azərbaycan ictimaiyyəti də bu siyasəti tam dəstəkləyir.

Ona görə biz bütün dini bayramları bir yerdə qeyd edirik. Bütün mərasimlərdə bir yerdə iştirak edirik. Bu gün burada pravoslav, yəhudi, katolik icmalarının rəhbərləri öz sözlərini deyəcəklər. Bu, təbiidir, bu, belə olmalıdır. Ancaq əfsuslar olsun ki, bəzi hallarda bəzi ölkələrdə biz bunu görmürük.

Biz öz yolumuzla gedəcəyik. Bu gün Azərbaycan istənilən istiqamət üzrə öz inkişaf modelini ortaya qoyur və gözəl nəticələr də bu modelin nə qədər düzgün olduğunu sübut edir. Biz multikulturalizmlə bağlı əlavə tədbirlər də görəcəyik. Bildiyiniz kimi, bu il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Keçən il Azərbaycanda Avropa Oyunları keçirilib, gələn il isə İslam Həmrəylik Oyunları keçiriləcəkdir. Bu, sadəcə olaraq İslam və Avropa ölkələri idmançılarının yarışı deyil, bu, bizim ümumi, ümumbəşəri dəyərlərə verdiyimiz töhfədir. Biz öz məsuliyyətimizi belə qəbul edirik, belə başa düşürük. Biz bu məsuliyyəti ilk növbədə, dövlətimizin, xalqımızın mənafeyi, digər tərəfdən bölgədə sabitliyin bərpası üçün daşıyacağıq. Çünki əgər bölgədə sabitlik bərpa olunmasa, istər-istəməz bu, bizə də təsir edə bilər. Siz də, indi mətbuatı izləyən insanlar, bizim ictimaiyyət də bilir ki, Azərbaycanı müxtəlif düşərgələrə, bizə aid olmayan işlərə cəlb etmək istəyirlər. Biz öz yolumuzla gedirik. Biz heç bir başqa ölkənin daxili işinə qarışmırıq və belə fikrimiz də yoxdur. Heç bir ölkəyə imkan vermirik ki, daxili işimizə qarışsın və imkan verməyəcəyik. Nə qədər bizə təzyiqlər və təhdidlər olsa belə, biz bu yoldan dönməyəcəyik. Ona görə biz öz sözümüzü deyirik. Biz görürük ki, harada vəziyyət ağırdır bunu deyirik, yol göstəririk, öz nümunəmizi göstəririk. Sadəcə olaraq, kimisə tənqid etmək üçün hansısa fikirləri demirik. Deyirik ki, baxın, Azərbaycanda bu məsələlər necə həll olunur. Niyə Azərbaycanda bu mümkündür? Niyə Azərbaycanda xalq vahid amal, ideya uğrunda birləşə bilir, başqa ölkələrdə süni səbəblər üzündən bir-birini öldürür, qanını tökür, qırır? Heç başa düşmür nəyə görə? Yaxın Şərqdə vuruşanların böyük əksəriyyəti anlamır ki, onlar nəyə görə, kimin tərəfində vuruşurlar, kimin maraqlarını müdafiə edirlər. Qardaş qanı axıdırlar, şəhərləri dağıdırlar, elə günə salırlar ki, o şəhərlərin, o ölkələrin bərpası bundan sonra mümkün olmayacaq. Nəyə görə? Çünki təbliğat, xarici təsir və hakimiyyətlərin zəifliyi. Harada ki, hakimiyyət möhkəmdir, xalqla bir yerdədir heç bir kənar qüvvə o hakimiyyətin iradəsinə təsir edə bilməz, o hakimiyyəti heç bir avantüraya çəkə bilməz.

Bir daha demək istəyirəm, Azərbaycan o ölkələrdəndir ki, öz sözünü deyir, öz siyasətini aparır. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır. Əgər Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləməsə, biz müstəqil siyasət apara bilmərik. Bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər. Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur.

Bu gün burada bütün Azərbaycan toplaşıbdır. Azərbaycanın hər bir rayonundan nümayəndələr buradadır. Onları salamlayıram. Xahiş edirəm ki, mənim salamlarımı yaşadıqları bölgələrin sakinlərinə çatdırsınlar. Gəncə sakinlərini salamlayıram, təbrik edirəm ki, "İmamzadə" dini-mədəniyyət mərkəzi yeni görkəm alıbdır. Sağ olun, sizə yeni uğurlar arzulayıram.

Tədbirin sonunda Azərbaycan Respublikasının Prezidenti "İmamzadə" dini-mədəniyyət mərkəzinin yeni görkəmi ilə tanış olduqdan sonra tədbir iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

İlham Əliyevin Tehranda rəsmi qarşılanma mərasimi olub

Azərbaycan Prezidenti İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə "Sədabad" sarayına gəldi.

Azərbaycanın və İranın dövlət bayraqlarının dalğalandığı "Sədabad" sarayının qarşısındakı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İran Prezidenti Həsən Ruhani Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycanın və İranın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin önündən keçdilər.

Prezidentlər birgə foto çəkdirdilər.

İranın dövlət və hökumət nümayəndələri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə İran Prezidenti Həsən Ruhaniyə təqdim olundu.



İlham Əliyevin və İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xameneinin görüşü olub

Görüşdə tarixi, dini, mədəni köklərlə bağlı olan ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasında birgə səylərin vacibliyi vurğulandı, bu barədə iki ölkə prezidentlərinin görüşlərində də müzakirə aparıldığı bildirildi. Həmçinin səfər çərçivəsində imzalanan sənədlərin ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın daha da inkişafına, Azərbaycan-İran münasibətlərinin möhkəmlənməsi işinə xidmət edəcəyi qeyd olundu.

Prezident İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak edib

İyirmi dörd il əvvəl erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı faciəsi qurbanlarının xatirəsini yad edirlər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva anma mərasimində iştirak etdilər.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.

"2015-ci il ərzində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələr" barədə hesabat iclası keçirilmişdir

11 fevral 2016-cı il tarixdə Xocavənd Rayon İcra Hakimiyyətinin başçısının "2015-ci il ərzində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələr" barədə hesabat iclası keçirilmişdir.

Yığıncaq iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Xocavənd qəsəbəsindəki abidəsi önünə gül dəstələri qoyub, mədəniyyət evinin qarşısında ötən il görülən işlər və keçirilən tədbirlərdən ibarət fotostendlərə baxıblar.

Rayon icra hakimiyyətinin başçısı Eyvaz Hüseynovun hesabat məruzəsində və çıxışlarda rayonun sosial-iqtisadi göstəriciləri təhlil olunub, xocavəndli məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən bəhs edilib. Bildirilib ki, hesabat dövründə Xocavənd qəsəbəsinin uzunluğu 5,6 kilometr olan giriş və mərkəzi yolu asfaltlanıb, Kuropatkin kənd uşaq bağçasının binası və Salakətin kənd tam orta məktəbinin istilik sistemi təmir edilib. İl ərzində rayonda ümumilikdə 4594 ağac əkilib. Yeni Xocavənd qəsəbəsinin daxili yollarının qum-çınqılla təmirinə başlanılıb. Hazırda Xocavənd qəsəbəsinin abadlaşdırılması və idman zalının tikintisi davam etdirilir.

Yığıncaqda qeyd olunub ki, rayon məşğulluq mərkəzinə 142 işaxtaran vətəndaş müraciət edib, onlardan 117 nəfəri işlə təmin olunub. 320 ailəlik qəsəbədə xalçaçılıq kursları təşkil edilib.

Diqqətə çatdırılıb ki, 2015-ci ildə rayonun təsərrüfatlarında 2035 baş iribuynuzlu mal-qara, 15 min 200 baş qoyun və keçi olub. Bu dövrdə 3050 sentner ət, 16 min 796 sentner süd, 362 sentner yun istehsal edilib. Rayon üzrə 5157 hektar buğda sahəsindən 160 min 898,4 sentner, 317 hektar arpa sahəsindən 8115,2 sentner məhsul götürülüb. Bundan başqa, fermerlər tərəfindən 1725 sentner kartof, 8765,5 sentner tərəvəz, 2633 sentner bostan məhsulları istehsal edilib.

İclasda digər çıxış edənlər təmsil etdikləri ayrı-ayrı sahələr üzrə görülən işlər barədə məlumat verib, qarşıda duran vəzifələrin həlli ilə bağlı təkliflər irəli sürüblər. Bildirilib ki, Xocavənd sakinləri bundan sonra da Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin icrasında fəal mövqe nümayiş etdirəcək, Azərbaycanın daha da çiçəklənməsi və qüdrətlənməsi naminə əllərindən gələni əsirgəməyəcəklər.

Hesabat yığıncağında Prezident Administrasiyasının məsul əməkdaşı Ağaəli Əhmədov və Milli Məclisin deputatı Elman Məmmədov çıxış ediblər.

Sonda qərar layihəsi oxunub, yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul edilib.

"2 Fevral - Azərbaycan Gəncləri günü"nə həsr olunmuş bədii əyləncəli mərasim keçirilmişdir

02 fevral 2016-cı il tarixdə Xocavənd rayon Mədəniyyət evində "2 Fevral - Azərbaycan Gəncləri günü"nə həsr olunmuş bədii əyləncəli mərasim keçirilmişdir. Rayonun ictimai həyatında, mədəni-kütləvi tədbirlərdə fəal iştirak edən, idmanın müxtəlif növlərində, müsabiqə və intellektual oyunlarda yüksək nailiyyətlər qazanan gənclərlə bərabər rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların əməkdaşlarının da iştirak etdiyi tədbirdə rəngarəng mahnılar və şeirlər ifa edilmiş, səhnəciklər nümayiş olunmuşdur.

Tədbirdə çıxış edən Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov ilk olaraq gəncləri təbrik etmiş, dövlətin gənclərlə iş və idman sahəsində yürütdüyü siyasətdən danışmışdır. Başçı çıxışında son illər Azərbaycanın iqtisadi cəhətdən daha da güclənməsini, beynəlxalq nüfuzunun durmadan artmasını, regionda lider dövlətə çevrilməsini möhtərəm Prezidentimizin məqsədyönlü siyasətinin bəhrəsi olduğunu qeyd etmişdir. Eyvaz Hüseynov gənclərə dəyərli tövsiyyələr verərək bildirmişdir ki, Azərbaycan gəncliyi daim sağlam, gümrah, dərin biliyə malik olmalı və öz üzərində çalışmalıdır. Ərazi bütövlüyümüzün bərpası bizim ümdə, ən əsas vəzifəmizdir və gənclərimizin hər biri öz çalışdığı sahədə əlindən gələni etməlidir ki, bu arzular, bu istəklər gerçəkləşsin.

Tədbirdə Xocavənd rayon Gənclər və İdman idarəsinin rəisi Aslan Quliyev görülən işlərdən danışaraq qeyd etmişdir ki, idarə tərəfindən həyata keçirilən tədbirlər gənclərin maraqlarına, mənafe və ehtiyaclarına uyğunlaşdırılmışdır. İdman və bədən tərbiyəsinə daha geniş kütlələrin cəlb edilməsi, gənclərin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsi, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə, ictimai-siyasi fəallığının artmasına kömək göstərilməsi, fiziki tərbiyəsi üçün müvafiq imkanlar yaradılması, onlarda vətənpərvərlik və Azərbaycan dövlətçiliyinə sədaqət hisslərinin yüksəldilməsi və bu kimi digər məsələlər hər zaman idarənin diqqət mərkəzində olmuşdur. Aslan Quliyev daha sonra bidirmişdir ki, bugünkü gənclərin həyatı çox surətli və dinamik cərəyan edən tarixi bir zamana təsadüf edir. Biz bunu dünyada, həmçinin Azərbaycanda gedən sosial-iqtisadi proseslərə, gənclər hərakatının inkişafına, regionda və dünyada baş verən hadisələrə, müasir dövrün gənclərini düşündürən məsələlərə nəzər salarkən görürük. Belə bir çətin və məsuliyyətli dövrdə cəmiyyətin aparıcı qüvvəsi olan gənclərin üzərinə böyük və şərəfli vəzifələr düşür. Gənclərin hərtərəfli inkişaf etməsi, gələcəyimizin aydın və işıqlı olması deməkdir.Tədbirdə Yeni Azərbaycan Partiyası Xocavənd Rayon Təşkilatı Gənclər birliyinin sədri Vüsal Hüseynov çıxış edərək bildirmişdir ki, gənclər bütün dövrlərdə dövlətin aparıcı qüvvəsi olmuş, cəmiyyətdə baş verən proseslərin önündə getmişdir. Hər bir dövlət, millət öz gələcəyini məhz gənclərdə görür və onların inkişafı üçün çalışır. Tədbirdə gənclər tərəfindən maraqlı musiqi nömrələri təqdim olunmuş və şeirlər səsləndirilmişdir. Həmçinin gənclərin iştirakı ilə keçirilən əyləncəli viktorinanın qalibi olmuş komandalar qiymətli xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

Təmas xəttinin Xocavənd rayonundan keçən hissəsində növbəti monitorinq keçirilmişdir

04 fevral 2016-cı il tarixdə ATƏT nümayəndələri İri Aderle, Saymon Piller, Tuncay Sevin və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin əməkdaşlarının iştirakı ilə təmas xəttinin Xocavənd rayonundan keçən hissəsində növbəti monitorinq keçirilmişdir. Monitorinqin keçiriləcəyi əraziyə getməzdən əvvəl nümayəndə heyətinin Xocavənd qəsəbəsində Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynovla görüşü olmuşdur. Rayon İcra Hakimiyyətinin başçısı qonaqları səmimi qarşılayaraq onları Qarabağda, öz doğma yurdlarımızda salamlayacağına ümid etdiyini bildirmişdir.

Bunun üçün isə ilk növbədə Ermənistanın işğalçılıq siyasətinə son qoyulması, işğal olunmuş Azərbaycan torpaqlarının tezliklə azad olunması və öz vətənində məcburi köçkünə çevirilmiş bir milyon insanın pozulmuş hüquqlarının bərpa olunmasının vacibliyini vurğulamışdır. Bütün bunların baş tutması, regiona əbədi sülhün gəlməsi üçün isə dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların ədalətli mövqe tutaraq işğalçıya öz yerini göstərməli olduğunu bildirmişdir. Münaqişənin tarixi köklərinə diqqət çəkən Rayon İcra Hakimiyyətinin başçısı qeyd etmişdir ki, əlbəttə sizin də bu məsələlər barəsində kifayət qədər məlumatınız var. Ancaq bir daha nəzərinizə çatdırıram ki, Dağlıq Qarabağı Qarabağ ermənilləri işğal etməmişdir. Bu ərazilər sizin də yaxşı bildiyiniz kimi digər böyük güclərin köməkliyi ilə Ermənistan ordusu tərəfindən işğal edilmişdir. İşğal zamanı tək Qarabağ ərazisi deyil, həmin əraziyə bitişik olan rayonlar, ümumilikdə 20 faiz torpaqlar da işğal olunmuş, ermənilər tərəfindən qanlı soyqırım aktları törədilmişdir. Fevral ayının 26-da Xocalıda törədilən soyqırımın növbəti ildönümü keçiriləcək. Bundan əvvəl isə onlar Qaradağlı kəndində soyqırım törətmişdilər. Bizim tarixi torpaqlarımız işğal olunub, dünya isə susur, aparıcı dünya dövlətləri buna sadəcə göz yumur, ermənilər də günügündən həyasızlaşır. Dünyanının güclü dövlətləri ATƏT-in üzvüdürlər və bu dövlətlərin problemlə bağlı fəaliyyətlərinin heç bir real nəticəsi yoxdur. Belə görünür ki, aparıcı dövlətlər işğalçı Ermənistanın öz adı ilə çağırmaq istəmir və həmişə bu dövlətə dəstək verirlər. Son vaxtlar Avropa Şurasında olan məsələ buna bariz nümunədir. Erməni işğalını təsdiqləyən bu sənədin qəbul olunmamasında ATƏT-ə üzv olan böyük güclərin fəallığı göz qabağındadır. Nə qədər ki, erməni yalanlarına Avropa dövlətləri inanır, lazım gələndə ona dəstək verir, vəziyyət günügündən gərginləşir. Keçən il avtomatlardan atəş açılırdı, indi isə minaatantlar işə düşüb. Bizə deyirsiniz ki, müharibə olmaz. Məsələ danışıqlar yolu ilə həll olunmalıdır. Danışıqlar uzanır, mənim torpağım isə hələ də erməni işğalındadır. Daha sonra bölgədəki vəziyyətlə bağlı monitorinq iştirakçılarına ətraflı məlumat verən İcra Hakimiyyətinin Başçısı rayon ərazisində bütün təmas xətti boyu atəşkəs rejiminin demək olar ki, hər gün pozulduğunu və bir çox hallarda daha intensiv xarakter daşıdığını bildirdi. Hərbiçilərlə yanaşı təmas xətinə yaxın ərazilərdə yaşayan, təsərrüfat işləri ilə ilə məşğul olan mülki şəxslər, onlara məxsus avtomobillər, mal-qara və atların Ermənistan ordusu tərəfindən hədəf seçildiyi bildirilmişdir. Təmas xətinə yaxın ərazilərdə yerləşən taxıl sahələrinin məqsədli şəkildə atəşə tutulması və baş verən genişmiqyaslı yanğınlar nəticəsində insanların böyük maddi itkilərlə üzləşdiklərini, eyni zamanda bu yanğınların ərazinin ekosisteminə də ciddi ziyan vurduğunu qrup üzvlərinin nəzərinə çatdıran Eyvaz Hüseynov 2015-ci ildə təmas xəttinə yaxın ərazidə 1600 hektar taxıl sahəsinin ermənilər tərəfindən yandırılaraq, 5000 min ton taxıl məhsulunun məhv edildiyini diqqətə çatdırmışdır. Bu il isə ermənilərin həmin əraziləri atəş altında saxlaması səbəbindən 1000 hektara yaxın torpaq sahəsi əkilməmiş qalmışdır. Təmas xəttində məskunlaşan əhali artıq bu ərazilərdən köçmək məcburiyyətində qalıb. 2015-ci ilin iyulundan 2016-cı ilin fevralına kimi atəşkəs ermənilər tərəfindən 3640 dəfə pozulmuş, 1 nəfər ölmüş, 7 nəfər isə yaralanmışdır. Bu atəşlərin əksəriyyəti isə minaatanlardan atılan atəş nəticəsində olmuşdur.

Bütün bunlara baxmayaraq, bu bir reallıqdır ki, Azərbaycan xalqı öz torpaqlarının itirilməsi ilə heç vaxt razılaşmayacaq və hansı yolla olursa olsun öz ərazi bütövlüyünü təmin edəcəkdir. Görüşün sonunda Rayon İcra Hakimiyyəti başçısına səmimi qəbul və ətraflı məlumat üçün təşəkkür edən monitorinq qrupunun üzvləri qoşunların Xocavənd rayonu ərazisindən keçən təmas xətinə yola düşmüşlər.

Xocavənd Rayon İcra Hakimiyyətinin Apelyasiya Şurası yaradılmışdır

Azərbaycan Respublikası Prezidentinin ölkədə sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" 2016-ci il 3 fevral tarixli Fərmanına uyğun olaraq Xocavənd Rayon İcra Hakimiyyəti Başçısının 09 nömrəli 05 fevral 2016-cı il tarixli sərəncamı ilə Xocavənd Rayon İcra Hakimiyyətinin Apelyasiya Şurası yaradılmış və 10 nömrəli 08 fevral 2016-cı il tarixli sərəncamı ilə Apelyasiya Şurasının katibliyinin tərkibi müəyyən olunmuşdur.

Xüsusi Qərargah yaradılmışdır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması, sərmayələrin cəlb edilməsi ilə bağlı tapşırıqlarının icrasını təmin etmək məqsədi ilə Xocavənd Rayon İcra Hakimiyyəti başçısının 04 fevral 2016-ci il tarixli 07 nömrəli sərəncamı ilə 7 nəfərdən ibarət tərkibdə Rayon İcra Hakmiyyəti başçısı yanında Xüsusi Qərargah yaradılmışdır. Xüsusi Qərargahın tərkibinə rayonun sosial-iqtisadi inkişafına təsir edə bilən qurumların rəhbərləri daxil edilməklə yanaşı, Qərargahın qaynar xətt xidməti təşkil edilmişdir.

Xocavənd rayonunun xidməti fəaliyyət göstərdiyi ərazidə əhalinin məşğulluğunun təmin edilməsi məqsədi ilə 01 fevral 2016-ci il tarixdən 22 yeni iş yeri açılmış, hal-hazırda 21 nəfər müvafiq işlə təmin edilmişdir.

Elan

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq Rayon İcra Hakimiyyəti başçısının 10 fevarl 2016-cı il tarixli 16 saylı Sərəncamı ilə Xocavənd Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının əməkdaşlarından 4 üzv, vətəndaş cəmiyyəti institutu nümayəndələrindən 5 üzv olmaqla 9 nəfərdən ibarət seçki komissiyası yaradılmışdır.İctimai Şuraya üzvlər vətəndaş cəmiyyəti institutlarının bərabər sayda təmsilçilərindən ibarət birgə yığıncaqda vətəndaş cəmiyyəti institutlarının nümayəndələri tərəfindən seçilir. Bununla əlaqədar olaraq 10 fevral 2016-cı il tarixdən etibarən 20 iş günü müddətində Xocavənd Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya namizədlərin irəli sürülməsi, qeydiyyatı elan olunur və 09 mart 2016-cı il tarixində başa çatacaqdır. Seçki ilə əlaqədar Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə müraciət oluna bilər.

Vətəndaş cəmiyyətləri institutlarının nəzərinə!

"İctimai iştirakçılıq haqqında" 22 noyabr 2013-cü il tarixli Azərbaycan Respublikasının Qanununun 6.1 maddəsinə və "İctimai Şuranın Vətəndaş Cəmiyyəti İnstitutları tərəfindən seçilməsinə dair Əsasnamənin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 saylı qərarına əsasən İctimai Şuralara Seçkilərin təşkili məqsədilə "Xocavənd Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə Komissiyanın yaradılması haqqında" Xocavənd Rayon İcra Hakimiyyəti başçısının 10 fevral 2016-cı il tarixli 14 saylı sərəncamı ilə Xocavənd Rayon İcra Hakimiyyəti yanında Seçki Komissiyası yaradılmışdır.

Rayon İcra Hakimiyyəti başçısı yanında Xüsusi Qərargahın yaradılmışdır

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə ölkədə sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, yeni iş yerlərinin açılması, sərmayələrin cəlb edilməsi ilə bağlı çox mühüm işlər görülmüşdür.

Rayon İcra hakimiyyəti tərəfindən ciddi təhlillər əsasında sosial-iqtisadi inkişafla bağlı proqnozların, habelə sahibkarların, vətəndaşların davamlı qəbulu zamanı irəli sürülən fikirlərin və qaynar xətt vasitəsilə daxil olan məlumatların əsasında təkliflərin hazırlanması, yeni iş yerlərinin yaradılması və sərmayələrin cəlb edilməsi ilə bağlı bütün zəruri tədbirlərin həyata keçirilməsi məqsədilə Rayon İcra Hakimiyyəti başçısı yanında xüsusi Qərargah yaradılmış. Qərargahın qaynar xətt xidməti təşkil edilmişdir.

"20 Yanvar" facisinin 26-cı ildönümünə həsr olunmuş ümumrayon anım tədbiri keçirilmişdir

20 yanvar 2016-ci il tarixdə "20 Yanvar" facisinin 26-cı ildönümünə həsr olunmuş ümumrayon anım tədbiri keçirilmişdir. Tədbir Yeni Xocavənd qəsəbəsində şəhidlərimizin xatirəsinə ucaldılmış "Şəhidlər Xatirə Abidə Kompleksi" önündə keçirilmişdir. Xatirə kompleksi önündə matəm musiqisi səsləndirilmişdir. Rayon ictimaiyyəti nümayəndələrinin o, cümlədən idarə, müəssisə və təşkilatların əmək kollektivlərinin, Rayon təhsil müəsisələrinin müəllim və şagirdlərinin iştirak etdiyi tədbirdə 570 nəfər iştirak etmişdir.

"20 Yanvar - Şərəf Tariximiz"

Xocavənd rayon Gənclər və İdman idarəsi Xocavənd Rayon İcra Hakimiyyəti ilə birgə 19 yanvar 2016-cı il tarixdə Xocavənd 320 ailəlik qəsəbədə yerləşən Tuğ kənd 1 saylı tam orta məktəbin akt zalında gənclərinin iştirakı ilə 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr olunmuş "20 Yanvar - Şərəf Tariximiz" mövzusunda dəyirmi masa keçirdi. Xocavənd rayon Gənclər və İdman idarəsinin əməkdaşları ilə bərabər rayon İcra Hakimiyyətinin və bir sıra idarə müəssisə və təşkilatların əməkdaşlarının da qatıldığı tədbirdə Azərbaycan xalqının azadlığı, suverenliyi uğrunda şəhid olmuş vətən övladlarının əziz xatirəsi yad olundu, müstəqilliyimiz uğrunda mübarizə tariximiz, ölkəmizin yaxın keçmişi ilə bağlı bir sıra məqamlar barədə gənclərin daha ətraflı məlumatlandırılması üçün müxtəlif çıxışlar səsləndirildi, ayrı-ayrı şagirdlərin fikirləri dinlənildi, məktəb şagirdlərinin hazırladığı şeirlərdən ibarət kompozisiya nümayiş olundu.

"Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda tədbir keçirilmişdir

16 fevral 2016-cı il tarixdə Rayon İcra Hakimiyyətinin akt zalında Xocavənd Rayon İcra Hakimiyyəti başçısı aparatının Etik müvəkkilinin təşkilatçılığı ilə Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində inzibati vəzifə daşıyan dövlət qulluqçularının iştirakı ilə "Dövlət qulluqçularının etik davranış qaydaları: Vicdanlı davranış, loyallıq, mədəni davranış, İnsanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə və işgüzar nüfuzuna hörmət. Hüquqi şəxslərin işgüzar nüfuzuna hörmət" başlığı altında tədbir keçirilmişdir.

Rayon İcra Hakimiyyəti başçısının müavini, Etik müvəkkil, Dövlət qulluqçularının etik davranış qaydalarına Nəzarət Komissiyası"nın sədri Azər Süleymanov öncə dövlət qulluqçularını salamladı və bildirdi ki, Xocavənd rayonunun idarə, müəssisə və təşkilatlarında dövlət qulluğunda çalışan dövlət qulluqçularının etik davranış qaydalarına nəzarət etmək məqsədilə Rayon İcra Hakimiyyəti başçısının 24.02.2011-ci il tarixli 09 saylı sərəncamı ilə "Dövlət qulluqçularının etik davranış qaydalarına Nəzarət Komissiya"sı yaradılmışdır. Natiq qeyd etdi ki, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanunun 21-ci maddəsinə əsasən Xocavənd Rayon İcra Hakimiyyəti tərəfindən ötən illərdə olduğu kimi 2015-ci il ərzində də rayonunun idarə, müəssisə və təşkilatlarında dövlət qulluğunda çalışan dövlət qulluqçularının xidməti davranışlarının bu qanunla müəyyən olunan etik davranış qaydalarına uyğunluğuna, dövlət orqanlarına və onların struktur bölmələrinə kadrların seçilməsi və yerləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl edilməsinə nəzarət edilmiş, dövlət qulluqçuları arasında onların tutduqları vəzifələrə uyğun olaraq vəzifə bölgüsü aparılmış, etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə bir sıra tədbirlər görülmüş, 2015-ci il ərzində idarə və təşkilatlarda dövlət qulluğunda çalışan dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarının pozuntusuna, eləcə də digər hüquqazidd hərəkətlərə yol verilməmiş, etik davranış qaydalarının pozulması ilə əlaqədar şikayət daxil olmamışdır. Daha sonra natiq mövzu haqqında qeyd etdi ki, hər bir dövlət qulluqçusu şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə öz vəzifə borcunu səmərəli yerinə yetirməyə borcludur. Dövlət qulluqçusu bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.

Etik müvəkkil loyallıq haqqında danışaraq vurğuladı ki, dövlət qulluqçusu onun xidməti vəzifəsinə aid olmadığı hallarda, dövlət orqanlarının, onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir. Eyni zamanda dövlət qulluqçusu dövlət qulluğu ilə bağlı vəzifələrin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməli, dövlət qulluqçularının fəaliyyəti insanların hüquq, azadlıq və qanuni maraqlarının təmin olunmasına, qorunmasına və müdafiəsinə xidmət etməli, dövlət qulluqçusu insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək qərarlara və hərəkətlərə yol verməməli, həmçinin hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalı və onların işgüzar nüfuzunu ləkələyə biləcək hərəkətlərə yol verməməlidir. Dövlət qulluqçusu bütün şəxslərə, o cümlədən birbaşa və yuxarı rəhbəri ilə və ya tabeliyində olan şəxslərə münasibətdə nəzakətli, xeyirxah, diqqətli və səbirli olmalıdır.

Natiq sonda tədbirə qatılan dövlət qulluqçularına 2016-cı ildə də etik davranış və peşəkar fəaliyyətinin daha da artırılması və möhkəmləndirməsi ilə bağlı tapşırıqlarını verdi.

Gənclərin vətənpərvərlik ruhunu yüksəltmək məqsədi ilə tədbir keçirilmişdir

Xocavənd rayon Gənclər və İdman idarəsi Yeni Azərbaycan Partiyası Xocavənd rayon təşkilatı və Xocavənd rayon Salakətin kənd tam orta məktəbi ilə birgə 16 fevral 2016-cı il tarixdə "Xocavənd" qəsəbəsində Qaradağlı soyqırımının 24-cü ildönümünə həsr olunmuş anım mərasimi keçirdi. Yeniyetmə və gənclərin qatıldığı tədbirdə torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş vətən övladlarının əziz xatirəsi yad olundu, erməni hərbi birləşmələrinin Qaradağlı kəndində törətdikləri vəhşiliklər, kənd özünümüdafiə dəstəsinin üzvlərinin göstərdiyi qəhrəmanlıqlar və başqa məqamlar barədə çıxışlar səsləndirildi, ayrı-ayrı gənclərin fikirləri dinlənildi, şagirdlərin hazırladığı şeir və kiçik hekayələrdən ibarət kompozisiya nümayiş olundu. Yeniyetmə və gəncləri şəhidlərimizin əziz xatirəsini həmişə uca tutmağa səsləmək, ermənilərin Xocavənd rayonunun Qaradağlı kəndində törətdikləri soyqırımı, mətin müdafiəçilərin kəndin müdafiəsi uğrunda göstərdikləri şücaət barədə yeniyetmə və gənclərin məlumatlılığını artırmaq, onlarda vətənpərvərlik ruhunu yüksəltmək məqsədi ilə təşkil olunmuş mərasimdə 412 nəfər iştirak etmişdir.

8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə təbrik

Hörmətli xocavəndli xanımlar!

Sizi, qarşıdan gələn 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı, ailə səadəti və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Rayonun sosial-iqtisadi, ictimai-siyasi, təhsil, səhiyyə və mədəni həyatında xocavəndli qadınlar daim fəal iştirak edirlər.

Rayonumuzun qadınları gənc nəslin milli adət-ənənələrə, azərbaycançılıq məfkurəsinə bağlılıq ruhunda tərbiyəsi işinə bundan sonra da xüsusi diqqət yetirəcək, rayonumuzun gələcək inkişafı naminə qüvvələrini, bilik və bacarıqlarını əsirgəməyəcəklər.

Bayramınız mübarək, əziz xocavəndli qadınlar!

"Xocavənd" qəzeti redaksiyası

Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilmişdir

Xocalı soyqırımının iyirmi dördüncü ildönümünün keçirilməsi haqqında Rayon İcra Hakimiyyəti başçısının 04 fevral 2016-cı il tarixli 08 saylı Sərəncamı ilə "Tədbirlər Planı" təsdiq edilmişdir. "Tədbirlər planı"na uyğun olaraq rayonun bütün yaşayış məntəqələrində, idarə, müəssisə və təşkilatlarında silsilə tədbirlər keçirilmişdir. Tədbirlərdə çıxış edən ziyalılar öz çıxışlarında bildirmişlər ki, 1988-ci ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən müdhiş hadisələrdən biri Xocalıda baş vermiş soyqırım oldu. Bu hadisə XX əsrin ən dəhşətli və qəddar faciələrindən biri hesab edilə bilər. Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-miilətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir. Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu az olan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları uzağagedən məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmən öz niyyətlərinə çata bilmədi. Doğrudur, faciə bütün Azərbaycan xalqını sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurmuşdur. Lakin xocalılar hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.Xocalı faciəsi rayonun ümumtəhsil məktəblərində, uşaq bağçalarında da anılmış, 26 fevral günü tədris müəssisələrində Xocalı soyqırımına həsr olunmuş xüsusi dərslər keçirilmiş, rayon ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi məqsədi ilə avtomobillər tərəfindən səs siqnalları verilmiş, matəm əlaməti olaraq rayonun qəsəbələrində Azərbaycan Respublikasının dövlət bayraqları endirilmişdir. 26 fevral 2016-cı il tarixdə Xocavənd rayonu "Yeni Xocavənd" qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış "Xatirə Abidə Kompleksi" önündə Rayon İcra Hakimiyyəti başçısı Aparatının kollektivi, rayonun ictimai həyatında iştirak edən fəal gənclər, rayon ictimaiyyəti, şəhid ailələri və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar ümumrayon anım tədbiri keçirilmişdir.

Novruz bayramınız mübarək!

Əziz xocavəndlilər! Sizi qarşıdan gələn, xalqımızın əziz bayramı olan Novruz bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edir, hər birinizə can sağlığı, səadət və uğurlar arzulayırıq. Novruz bayramı mənşəyini uzaq keçmişimizin ən dərin qatlarından alıb Azərbaycan xalqının mənəviyyat aləminin zənginliyini günümüzədək layiqincə yaşadır.

Yaz bayramı özündə qoruyub saxladığı misilsiz mənəvi qüvvət sayəsində tariximizin ən çətin və mürəkkəb dövrlərində belə gələcəyə nikbin baxmağımızı təmin edib.

Bu ümumxalq bayramı qoy hər ocağa, hər ailəyə bol sevinc, firavanlıq və ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun, əziz xocavəndlilər!".

"Xocavənd" qəzeti redaksiyası

Qaradağlı kəndinin Ermənistan ordusu tərəfindən işğal edilməsinin 24-cü ildönümünə həsr olunmuş ümumrayon anım mərasimi keçirilmişdir

17 fevral 2016-cı il tarixdə Yeni Qaradağlı qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış "Şəhidlər-Xatirə Abidə Kompleksi" önündə Qaradağlı kəndinin Ermənistan ordusu tərəfindən işğal edilməsinin 24-cü ildönümünə həsr olunmuş ümumrayon anım mərasimi keçirilmişdir. Tədbirdə abidə önünə tər gül dəstələri və əklil qoyulmuş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunmuşdur. Daha sonra tədbir rayon Mədəniyyət evində davam etdirilmişdir. Tədbirdə çıxış edən Salakətin kənd tam orta məktəbin tarix müəllimi Telli Alıyeva bildirmişdir ki, Qaradağlı kəndi hələ ötən əsrin əvvəllərində bir neçə dəfə erməni vandallarının hücumlarına məruz qalmışdır. Həmin vaxtlarda da kənd əhalisinə qarşı çoxlu sayda qətliamlar və terror aktları törədilmişdir. Tarix boyu müsəlmanlara qarşı törətdikləri cinayətlərə görə cəzasız qalan ermənilər 1988-ci ildən başlayaraq Dağlıq Qarabağ və onun ətraf rayonlarında xüsusi amansızlıqlar törədərək, həmin ərazilərdə yaşayan dinc azərbaycanlıları öz doğma ata-baba torpaqlarından didərgin salmışlar. Daha sonra tədbirdə çıxış edən Qaradağlı faciəsi zamanı 4 nəfər ailə üzvünü itirmiş Turab Hüseynov Qarabağda, eyni zamanda Qaradağlı kəndində xalqımızın başına gətirilən müsibətlərdən danışmışdır. Turab Hüseynov Qaradağlı kəndinin işğalı zamanı ermənilər və onların havadarları tərəfindən kənd əhalisinə qarşı soyqırımı tö-

rədildiyini bildirmişdir. Tədbirdə çıxış edən Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov Qarabağda başlanan müharibənin köklərinin daha əvvələ getdiyinə diqqət çəkərək, bu prosesdə ermənilərin havadarlarının xüsusi xidmətlərindən danışmışdır. Başçı 1988-ci ildən başlamış Qarabağ müharibəsində Ermənilərin get-gedə azğınlaşması və o, dövrdə Azərbaycan rəhbərliyinin hadisələrə biganəliyi nəticəsində xalqımızın başına bəlalar gətirildiyini bildirmişdir. Həmin vaxtlarda Qarabağda baş verən hadisələrin iştirakçısı olmuş başçı, ASALA terror təşkilatının rəhbəri Monte Melkonyanın bilavasitə rəhbərliyi eləcə də Arabo və Aramo erməni quldur dəstələrinin iştirakı ilə Qarabağda qanlı teror aktları törədildiyini bir daha vurğulamışdır. Vahid komandanlığın eyni zamanda ordu qüvvələrinin olması səbəbindən Qarabağ və onun ətraf rayonları işğal olunaraq xarabalığa çevrilmişdir. Ulu öndər Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanda ordu quruculuğu sahəsində aparılan əsaslı islahatlardan söz açan Eyvaz Hüseynov bu gün Qüdrətli Azərbaycan ordusunun Qafqaz regionunda ən güclü ordu olduğunu bildirmişdir. Natiq Silahlı qüvvələrin Ali Baş Komandanı Cənab Prezident İlham Əliyevin əmri ilə itirilmiş Qarabağ torpaqlarının azad ediləcəyi günün çox da uzaqda olmadığını vurğulamışdır. Sonda tədbir Salakətin kənd tam orta məktəbin şagirdlərinin vətənpərvərliklə bağlı ifa etdikləri şeir parçaları və rayon Mədəniyyət evinin kollektivi tərəfindən hazırlanmış "Ana fəryadı" ədəbi-bədii kompozisiyanın nümayiş etdirilməsi ilə başa çatmışdır.

Âÿòÿí îüëó, áó òîðïàãëàðû óíóòìà!

Qərbi Azərbaycan - dekabr 1988-ci il
Xankəndi - sentyabr 1988-ci il
Xocalı - 26 fevral 1992-ci il
Xocavənd - 2 oktyabr 1992-ci il
Şuşa - 8 may 1992-ci il
Laçın - 17 may 1992-ci il
Kəlbəcər - 01 aprel 1993-cü il
Ağdam - 23 iyul 1993-cü il
Füzuli - 23 avqust 1993-cü il
Cəbrayıl - 23 avqust 1993-cü il
Qubadlı - 31 avqust 1993-cü il
Zəngilan - 30 oktyabr 1993-cü il

Tuğ- 30 oktyabr 1991-ci il
Salakətin- 30 oktyabr 1991-ci il
Xətai- 15 noyabr 1991-ci il
Xocavənd- 19 noyabr 1991-ci il
Axullu- 9 yanvar 1992-ci il
Qaradağlı- 17 fevral 1992-ci il
Muğanlı- 2 oktyabr 1992-ci il
Əmirallar- 2 oktyabr 1992-ci il
Kuropatkin- 2 oktyabr 1992-ci il
Günəşli- 23 iyul 1993-cü il

Şərəflə anılan tarix - Qaradağlı

Dağlıq Qarabağın ən qədim kəndlərindən biri olan Qaradağlının işğalından 24 il ötməsinə baxmayaraq, mən və mənim həmkəndlilərim həmin müdhiş faciəni hər gün xatırlayır və sanki bir daha yaşayırıq. İtkilərimiz nə qədər böyük, yaşadıqlarımız nə qədər ağrılı, acılı olsada belə öz doğma evləri, ata- baba torpaqları uğrunda sonadək mübarizə aparmış qəhrəman həmkəndlilərimin igidliyi bizim üçün hər zaman, bir təsəlli və qürur mənbəyidir. Ermənistanın Azərbaycana əsasız ərazi, torpaq iddiası ilə başlanan Dağlıq Qarabağ müharibəsinin ilk günlərindən hadisələrin mərkəzində olan Qaradağlı kəndi hər tərəfdən erməni yaşayış məntəqələri ilə əhatə olunmasına baxmayaraq dörd il müddətində düşmənlə təkbaşına mübarizə aparmış, onlara layiqli müqavimət göstərib. Bu bir həqiqətdir ki, hadisələrin ilk günlərindən Dağlıq Qarabağda yaşayan azərbaycanlılar o vaxtki rəhbərliyin məsələlərə laqeyd münasibəti nəticəsində demək olar ki, taleyin ümidinə buraxılıblar.

Tam əminliklə qeyd edərdim ki, həmin vaxt bu insanların maddi, fiziki köməkdən çox mənəvi dəstəyə, dayağa eytiyacları var idi. Çünki, itkilər verməsinə, mərhumiyyətlər yaşamasına baxmayaraq Qaradağlı qarışıq bütün kəndlərimiz mərdliklə döyüşür, mübarizə aparırdılar. Sadəcə bu insanların yanında olmaq, onların harayına səs verməklə bu qanlı mücadilədə tək olmadıqlarını bildirmək yetərdi. Əlbətdə ürəyi Qarabağla döyünən, El-Vətən namusu çəkən igid soydaşlarımız zaman- zaman ən qızğın döyüşlərin getdiyi bölgələrə, o cümlədən bizim Qaradağlı kəndinə gəlirdilər, onlar bu gəlişləri ilə yerli sakinlərə həqiqətən yeni ruh və əzm gətirmiş olurdular. Bu sıradan Bakı şəhəri, Səbail rayon ictimaiyyət nümayəndələrini, Ağdam rayon polis şöbəsinin əməkdaşlarını, XTMD-nin döyüşçülərini, sonrakı dövrlərdə isə Milli Ordudan olan könüllüləri hər zaman böyük ehtiramla yad edirik.

Həmin insanlar isə hər zaman o tarixi anları fəxrlə xatırlayır, həyatlarının ən unudulmaz və şərəfli günləri hesab edirlər. 1991-ci ildə mən Xocavənd ərazi İK sədrinin müavini vəzifəsində çalışırdım.Azərbaycanlı yaşayış məntəqələrinin müdafiə olunması üçün çalışır və bu məqsədlə bütün vasitələrdən istifadə etməyə çalışırdıq. Oktyabr ayında kəndin müdafiəçilərinə kömək etmək üçün həmin vaxt Xocavənd Ərazi İcrayyə Komitəsinin sədri Rəhman Rəhmanov və Muğanlı kənd Sovetinin sədri Eyvaz Hüseynovun təşəbbüsü ilə rayonun Muğanlı, Əmirallar və Kuropatkin kənd sakinlərindən ibarət bir qrup döyüşçünün mənimlə birlikdə Qaradağlıya gəlmələrini yaxşı xatırlayıram. Muğanlı kənd sovetinin sədri və özünümüdafiə dəstəsinin rəhbəri Eyvaz Hüseynovun (hazırda Xocavənd Rayon İcra Hakimiyyətinin başçısıdır) başçılıq etdiyi həmin dəstəyə Muğanlı özünümüdafiə dəstəsinin üzvüləri Quliyev Aslan, Hüseynov İbad, Namazov Elxan və Məhərrəmov Qalib, Əmirallar kəndindən, kənddə fəaliyyət göstərən tikiş sexinin direktoru Hüsən Rəhmanov, orta məktəbin müəllimi Aftandil Həsənov, polis işçiləri Mustafayev Rafiq və Bəhrəmov Fedya, Kuropatkin kəndindən isə polis işçiləri Məmmədov Sərdar və Hüseynov Arif daxil idi. Həmin dövrdə bu kəndlərin özündə vəziyyət bir o qədər də ürəkaçan deyildi və ermənilər tərəfdən hücumlara məruz qalırdılar, lakin buna baxmayaraq bu cəsur insanlar könüllü olaraq Qaradağlıya getməyə, daha çətin və təhlükəli şəraitdə olan soydaşlarımızla bir yerdə olmağa qərar vermişdilər. 1991- ci ilin oktyabr ayının ortalarinda biz Qaradağlıya getmək üçün Ağdam aeroportuna gəldik. Günün ikinci yarısında, təxminən saat 16 radələrində Xocavənd Ərazi İcrayyə Komitəsinin sədri Rəhman Rəhmanov və əslən Qaradağlıdan olan fəal Hüseynov Ələsgərlə sağollaşıb vertalyota əyləşdik. Ağdamdan - Qaradağlıya 15-20 dəqiqəlik bir uçuş müddəti olmasına baxmayaraq, bu marşurut hər zaman çox təhlükəli idi. Belə ki, Ağdamdan Xocavənd istiqamətində hərəkət edən bütün vertalyotlar Qarakənd, eləcədə digər erməni yaşayış məntəqələrində yuva salmış silahlı quldurlar tərəfindən atəşə məruz qalırdılar.

Bizim uçduğumuz vertolyotda da istisna olunmadı və biz Qarakənd istiqamətindən güclü atəşə tutulsaq da xoşbəxtlikdən hər şey bizim üçün yaxşı qurtardı. Qeyd etdiyim kimi təxminən 15 dəqiqədən sonra artıq biz Qaradağlıdaydıq. Burada bizi Qaradağlı kənd Sovetinin sədri Cavay Hüseynov və xeyli sayda kənd sakinləri böyük ruh yüksəkliyi ilə qarşıladılar. Bir neçə saatdan sonra isə artıq köməyə gəlmiş dəstə üzvülərinin yer aldığı döyüş postları, eyni zamanda yerləşəcəyi evlər müəyyən edilmişdi. Belə ki, kənd sakini Mustafayev Mamedin evində yerləşən Muğanlı kənd

özünümüdafiə dəstəsindən olan 5 nəfərlik qrup kəndin cənub-qərbində Kəndxord istiqamətindəki postda, kənd sakini Doluxanov Əvəzin evində yerləşən Əmirallar və Kuropatkin sakinlərindən ibarət 5 nəfərdən ibarət qrup isə kəndin şimalında, Qağarza kəndi istiqamətində olan postlarda mövqe tutdular.

Muğanli özünümüdafiə dəstəsində 2 ədəd avtomat (AK-76 və AKM-74) və 3 ədəd TOS-8 ,Əmirallar sakinlərində 4 ədəd beşaçılan, Kuropatkin sakinlərində isə 2 ədəd beşaçılan silahları var idi. İlk növbədə mövqelərin möhkəmləndirilməsi, postların daha eytibarlı mühafizə olunması işlərinin təşkili olduqca zəruri məsələ idi. Bunun üçün kolxoz sədri Novruz Hüseynovdan boş kisələr götürüldü və həmin kisələr torpaqla doldurularaq səngərlərin qarşısına əlavə sipər kimi düzüldü. Bundan başqa postlar arasında əlaqə və bu kimi digər zəruri işlər həyata keçirildi. Kənd özünümüdafiə qüvvələri ilə çiyin - çiyinə döyüşən dəstə üzvülərinin demək olarki hamısı lap əvvəllərdən kənd sakinləri ilə bir- birilərini yaxından tanımaları, eyni zamanda onları birləşdirən bir amal və eyni məqsəd tezliklə onlar arasında sıx ünsiyyətin yaranmasına, gələcəkdə uzun müddət davam edəcək dostluq əlaqələrinin qurulmasına əsaslı bir zəmin yaradırdı.

Aradabir vaxt tapıb Qaradağlı kənd məktəbinin idman zalında, əvvəlki illərdə bir ənənə halını almış kəndlər arası (təbii ki, Muğanlı Əmirallar və Kuropatkin kəndlərindən olan qrup üzvülərindən bir komanda yaradılmaqla) voleybol yarışı keçirməyə də imkan tapan döyüşçülər sanki bunulada düşmənə meydan oxuyurdular. Onuda qeyd edimki voleyboy yarişinda əvvəlki illərdə oldugu kimi Qaradağlı kəndinin komandası qalib gəldi. Ümimiyyətlə Qaradağlı kəndində voleybol çox güclü inkişaf etmişdi və kəndin komandası rayon və vilayət birinciliklərində həmişə fərqləniridi. 19 noyabr 1991-ci ildə rayonun eyni adlı Xocavənd kəndi ermənilər tərəfindən işğal olunduqdan sonra Qaradağlı tamamilə mühasirə vəziyyətinə düşdü. Artıq kəndlə əlaqə yalnız vertolyotlar vasitəsilə mümkün idi. Bütün bunlara baxmayaraq kənd sakinləri düşmənin çoxsaylı hücumlarının qarşısını layiqincə alır, eyni zamanda ona güclü zərbələr vururdular.

Artıq real vəziyyət kənddə olan qızların,qadınların və uşaqların çıxarılmasını diqtə edirdi və nə qədər çətin olsada biz bu işləri həyata keçirmək məcburiyyətində idik. Belə ki, həmin dövrə kimi erməni quldurlarının hücumları və törətmiş olduqları terror aktları nəticəsində 17 nəfər dinc kənd sakinləri qətlə yetirilmişdilər. Mühasirə şəratində olan Qaradağlıya heç bir hərbi köməyin olmaması, ətrafdakı postlara ermənilərin yeni qüvvələr, peşəkar terrorçu dəstələr gətirmələri isə ötən hər gün qüvvələr balansının daha da dərinləşməsinə, ermənilərin xeyrinə dəyişməsinə şərait yaratmışdı. Lakin kəndin müdafiəçiləri öz doğma evlərini, ocaqlarını sonadək qorumaqda israrlı idilər. 1992- ci ilin yanvar ayı. Artıq neçə aydan bəri davam edən mühasirə şəraiti davam edir. Kənd özünümüdafiə qüvvələrinin əzmini qıra bilməyən erməni quldurları daha da azğınlaşır, quduz hikkələrini dinc sakinləri qətlə yetirməklə soyutmağa çalışırdılar. Belə ki, yanvar ayının 8-də səksən yaşlı kənd sakini ermənilər tərəfindən qətlə yetirildi. Elə həmin gün namərd gülləsi könüllü olaraq özünümüdafiə dəstəsinə köməyə gəlmiş igid bir soydaşımızın həyatına son qoydu. 1992- ci ilin fevral ayının 14 -dən başlayaraq ermənilərin hücumları daha intensiv xarakter almağa başladı. Artıq məlum idi ki, ermənilər kəndi götürmək üçün qəti hərəkətə keçiblər. Fevral ayının 17 nə kimi davam edən qeyri bərabər döyüşdə 9 nəfərini itirən kənd sakinləri silah sursatın tükənməzi səbəbindən ermənilər tərəfindən girov götürüldülər və əsil faciə də bundan sonra başlandı. Belə ki, kənd sakinlərindən 32 nəfər ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi. Əsirlikdə olarkən döyülmələr və qeyri insani davranışlar səbəbindən 8 nəfər kənd sakini dünyasını dəyişdi. Beş nəfərin taleyi isə hələdə nəmalum olaraq qalır. Bütün itkilərə, məruz qalmış olduğu soyqırımı və faciələrə baxmayaraq Qaradağlı mübarizənin, əzm və əyilməzliyin timsalı kimi hər zaman Azərbaycan tarixində qalacaq. Bəli bu bizim yaşadığımız bir zaman, yadaşlarımızdan silinməyəcək tarixi anlardır. Bu anların digər yaşadıqlarımızdan fərqi və özəlliyi isə ondan ibarətdir ki, üstündən 24 il ötməsinə baxmayaraq həmin tarixləri şərəflə anır, qürurla xatırlayırıq.

Ruslan Şirinov
Qaradağlı kənd sakini, müharibə veteranı, 1991-ci ildə Xocavənd Ərazi İcrayə Komitəsi sədrinin müavini işləyib

Əhalinin kütləvi tibbi müayinəsinə başlanıldı

Azərbaycanda gedən sürətli iqtisadi inkişaf bütün sosial sahələrin, o cümlədən səhiyyənin inkişafına da əsaslı təkan vermişdir. Vətəndaşların sağlamlıqlarının qorunması Azərbaycan dövlətinin prioritet istiqamətlərindən biridir. Bunun bariz nümunəsi isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fevralın 15-dən mayın 2-dək bütün ölkə vətəndaşlarının pulsuz tibbi müayinədən keçirilməsi ilə bağlı verdiyi tapşırıqdır.

Ölkə başçısının tapşırığı ilə əhalinin tibbi müayinədən keçirilməsi ilə bağlı aksiya fevralın 15-dən başlayaraq Xocavənd rayonunda da uğurla icra olunmaqdadır. Bu məqsədlə qrafik tərtib olunub və Rayon İcra Hakimiyyəti başçısının Sərəncamı ilə komissiya və həkim briqadalarının tərkibi təsdiq olunmuşdur. Artıq 15 fevraldan etibarən müayinələrə başlanılmışdır. Müayinələrin ilk günündən Rayon Mərkəzi Xəstəxanasına çoxlu sayda vətəndaş müraciət edərək dövlətimizin başçısının tapşırığı ilə həyata keçirilən müayinələrdən yararlanıb. Burada onlar ixtisaslı həkimlər tərəfindən hərtərəfli müayinə olunur, eləcə də ultrasəs müayinələrindən keçirlər. Xəstəlik aşkarlanan insanlar müvafiq müalicə prosesinə cəlb olunur və müalicə kursları təyin edilir. Fevralın 26-dək 1705 nəfər tibbi müayinədən keçirilmiş, onlardan 11` nəfəri ambulator, 2 nəfəri stasionar müalicəyə cəlb olunmuş, 3 nəfər müalicə üçün Bakı şəhərinə göndərilmişdir.

Yeni təyinat

Xocavənd Rayon İcra Hakimiyyətinin əmri ilə “Xocavənd” qəzetinin baş redaktoru vəzifəsinə 01.02.2016-cı il tarixdən Şirinov Ruslan Böyükkişi oğlu təyin olunmuşdur.

Şirinov Ruslan Böyükkişi oğlu 1957-ci ildə Xocavənd rayonu Qaradağlı kəndində anadan olmuşdur.

1979-cu ildə Xankəndi Pedaqoji Universitetini bitirmişdir. Qaradağlı tam orta məktəbində təlimtərbiyə işləri üzrə direktor müavini, 1991-ci ildən Xocavənd Ərazi İcraiyyə Komitəsində sədr müavini, 1992-ci ildən 2007-ci ilə kimi Xocavənd Rayon İcra Hakimiyyətində ümumi şöbənin müdiri, 2007-2014-cü illər ərzində Xocavənd Rayon İcra Hakimiyyəti Başçısının müavini vəzifələrində çalışmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilmişdir.

Qarabağ müharibəsi veteranıdır.

Ailəlidir. 4 övladı var.

Novruz bayramı və çərşənbələr

Novruz bayramının bütöv mifoloji semantikasında xalq meydan tamaşalarından tutmuş, ayrı-ayrı mövsüm atributlarına, kulinar atributlarına qədər bu "mifoloji yol"un izləri özünü qoruyub saxlayır. Bu yolun bayramaqədərki dörd ilaxır çərşənbələr üzrə nəzərdən keçirilməsi daha məqsədəuyğundur. Məlumdur ki, Novruz bayramına qədər dörd çərşənbə geniş şəkildə qeyd edilir:

1.Su çərşənbəsi
2.Od çərşənbəsi
3.Yel çərşənbəsi
4.Torpaq çərşənbəsi

Bu çərşənbələr insanın 4 ünsürdən yaradılması ilə bağlı dini-mifik görüşləri simvollaşdırır və ritual-mifoloji semantikasında yaradılış prosesini dinamik olaraq işarələyir. Bu aspektlərə ayrı-ayrılıqda diqqət edək.

Su çərşənbəsi

Məlumdur ki, istər qədim türk, istərsə də islami yaradılış haqqında görüşlərdə su ən dominant komponentdir. Hətta yaradılışdan əvvəl bütün varlığın yalnız sudan ibarət olması haqqında qədim türk mifi də mövcuddur. Ümumiyyətlə, dünyanın əksər xalqlarında su ilə bağlı miflərdə süyün bu keyfiyyəti-od, torpaq, hava ilə bərabər yaradılışın əsas komponentlərindən olması daha qabarıqdır. Əslində Novruz bayramının ilk çərşənbəsinin su adı ilə qeyd olunması insanın yaradılış prosesinin ilkin mərhələsinin qeyd olunmasıdır. Su çərşənbəsində xalq arasında bu gün də yaşadılan mərasimlər bu fikri təsdiq etməkdədir. Su çərşənbəsində suyun qutsal mahiyyəti ona inamda bir daha ifadə olunur. Bütün mifik mətnlərdə su həyat verən, dirildən, sağlamlıq və xoşbəxtlik verən bir sakral inam obyekti kimi çıxış edir. Məsələn, Azad Nəbiyevin şərti olaraq "Qurd və su" adlandırdığı mifdə qurdun yaralanmış balası buz bulağın suyunun sakral-mifik gücü ilə yenidən həyata qayıdır. Mifik planda suyun bu yaradıcılıq, həyatvericilik funksiyası onun daha dərin mifoloji qatlarda insanın yaranmasında iştirak edən dörd ünsürdən biri olması ilə əlaqədardır. Azərbaycan folklorunda, eləcə də türk xalqlarının folklorunda suyla bağlı sakral görüşlər, inam və sınamlar da bununla əlaqədardır.



Od çərşənbəsi

Novruz bayramı ərəfəsində keçirilən ikinci çərşənbə-od çərşənbəsi insanın yaradılış prosesinin ikinci mərhələsinin, od komponenti ilə bağlı mərhələnin mifik təzahürüdür. Mövcud tədqiqatlarda bayram ərəfəsi odla bağlı ritual və mərasimlərin aktiv mövcudluğu daha çox odun sakral mahiyyəti ilə əlaqələndirilib. Məsələnin bu cür etnik-mifoloji kontekstinin müəyyənləşdirilməsi baxımından yanlış qoyulması bayramın atəşpərəstlik və dolayısı ilə irandilli xalqlarla bağlanmasına, bu da öz növbəsində xalqımızın etnogenezesinin qeyri-türk kontekstində axtarılmasına gətirib çıxarmışdır. Qədim türk mifologiyasının özündə odla bağlı müxtəlif motivlər mövcud olmuşdur və Novruzdakı odla bağlı rituallar bu görüşlərlə bağlıdır. Bayram ərəfəsində keçirilən əski rituallardan olan "Qodu xan" oyunu, onunla bağlı mətnlər bu kultun sırf türk mifologiyasından qaynaqlandığını sübut edir. Od kultunun yaradılışla əlaqəsi isə ilk dəfə olaraq epizodik də olsa Mirali Seyidovun tədqiqatlarında əksini tapıb. Qam-Şaman mərasimindən söhbət açan alim yazır: "Törəndə, ocağın çevrəsində oturanlar dəfi gündoğan yöndən günbatana dığırlayırdılar. Dəfin gündoğandan günbatana doğru hərəkəti sözsüz ki, günəşə inamla ilişgilidir. Qamlar dəfə yaranışın bəlgəsi kimi baxırdılar. Yaradılış kosmoqoniya ilə ilişgili bu görüş öz əksini qam-şaman dəfində tapmışdır".

Göründüyü kimi, alim şaman dəfini günəşin və yaradılışın simvolu kimi izah edir. Odun türk-mifik görüşlərində dünya ağacı ilə əlaqəsi də son dərəcə maraq doğuran mifoloji görüşlərdəndir. Əski türk inamına görə, odu insanlar ilk olaraq ağac koğuşunun dibindən əldə etmişdildər. Odla bağlı türk-mifik görüşləri müəyyən mənada atəşpərəstliklə birləşərək, Novruz bayramının ritual semantikasına trasfomasiya olunmuşdur. Lakin diqqətlə baxıldıqda odun novruz bayramının mərasim sistemində oynadığı funksiyanın genetik kökləri etibarilə yaradılışa gedib çıxdığının şahidi oluruq. Onun nəsil və coyun qoruyucusu olması sistemi bunu daha bariz göstərir: "Atəş türk xalqlarında müqəddəsliyi, qutsallığı qoruyan varlıqlardan biridir. Əski düşüncəyə görə, atəş ocağı, ocaq da evi, soyun davamını təmsil edir. Atəş tanrısı atəşi və ocağı qoruyur. Atəşə su tökülməz, ona pis söz deyilməz".

Yel çərşənbəsi

Novruz bayramı ərəfəsində keçirilən yel çərşənbəsi də yaranış prosesinin üçüncü mərhələsini əks etdirir. Əgər torpaq və su insan yaradılışının materialını, maddi əsasını təşkil edirsə, od və yel bu materialın yaradılmasında kənar vasitəçi statusunda çıxış edir. Belə ki, yaradılışla bağlı dörd ünsür mifində yaradılışın maddi əsası olaraq torpaqla su binar oppozisiyadırsa, bu materialın yaradılışa çevrilməsi prosesinə təkan verən vasitələr kimi, yellə od da binar oppozisiyadadır. Yaradılış mifologiyasında torpaqla suya daha çox statiklik, donuqluq, yellə oda isə dinamiklik, hərəkət xasdır. Bu mənada yel, hava birbaşa ilahi qüvvənin iradəsinin ifadəsi kimi çıxış edir. Əski türk mifoloji mətnlərində bu mifin məntiqdən irəli gələrək yel daha çox antropomorflaşdırılmış, canlı, çevik bir varlıq kimi təsəvvür edilmişdir. Bu təsəvvürlər daha çox "yel baba" mifik obrazında konsentrasiya olunmuşdur. Bəzi hallarda mənfi semantemdə də xatırlanan yel baba əksərən müsbət obrazda özünü göstərir.

Torpaq çərşənbəsi

Sonuncu ilaxır çərşənbə torpaq çərşənbəsidir. Yuxarıda da qeyd etdiyimiz kimi, torpaq insan yaradılışının əsas maddi əsası olmaq etibarilə bu prosesdə son dərəcə əhəmiyyətli bir mövqeyə malikdir. Torpaq müqəddəsliyinin türk mifoloji görüşləri ilə bərabər, etnik-əxlaqi dəyərlər sistemində yurd, vətən, el-oba anlayışı ilə yanaşı, yaradılışın maddi əsası olmasından irəli gələrək sakral mifoloji semantikaya da malikdir. Yazda torpağın oyanmasının mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Bu isə ilk növbədə insanın yaradılış mifindən qaynaqlanır.

Təsisçi:
Xocavənd Rayon İcra Hakimiyyəti
Baş redaktor:
Ruslan Şirinov

VÖEN № 7900031641

Bank hesabı:
H/h 8033080000
“Kapitalbank”ın
Beyləqan filialı

Ünvan:
Yeni Xocavənd qəsəbəsi,

Tiraj: 500, Sifariş 75

Mob: (051)720-21-71

www.Xocavend-ih.gov.az
www.Xocavendmks.com
www.Garadaghli.org

Qəzet “Xocavənd” qəzeti redaksiyası MMC-də yığılmış və səhifələnmiş “Adiloğlu” mətbəəsində çap olunmuşdur.